

Səddam Hüseynin Küveyt ərazisində yerləşən tank və top məzarlığı tapılıb.

1991-ci ildə Körfəz müharibəsi zamanı Küveyt ərazisində müharibə aparan İraq ordusunun tankları müharibə bitdikdən sonra da elə buradaca qalıb. Bunun səbəbi hələ də heç kimə məlum deyil. Qeyd edək ki, aşkar olunan bu qəbiristanlığa gəlmək istəyənlərin sayı gündən-günə artır. Amma maraqlı olan odur ki, bu tanklara maksimum 20 dəqiqə baxmaq olar. Çünki həmin ərazidə temperatur 50 dərəcəyə çatır. Bundan başqa metalın da qızdığını nəzərə alsaq, orada durmaq müşkül məsələyə çevrilir. Son günlərdə aşkarlanan bu məzarlığın fotolarını təqdim edirik.